# Ədliyyə işçilərinin peşə bayramı





**22 Noyabr Ədliyyə İşçiləri Günündə Ədliyyə Nazirliyinin və Ali Məhkəmənin rəhbərliyi, ədliyyə işçiləri və hakimlər Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər, ulu öndərin abidəsi önünə əklil qoyublar. Akademik Zərifə xanım Əliyevanın məzarı önünə gül dəstələri düzülüb. Şəhidlər xiyabanında isə Vətən qurbanlarının əziz xatirəsi anılıb.**

Nazirlikdə peşə bayramına həsr olunan təntənəli mərasimdə Azərbaycan ədliyyəsinin keçdiyi inkişaf yolundan bəhs olunub, bayram münasibətilə hazırlanmış film nümayiş etdirilib.

Ədliyyə naziri Fikrət Məmmədov ədliyyə işçilərini təbrik edərək bildirib ki, artıq üçüncü ildir bu bayram ölkə Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış parlaq Zəfərimizin bizlərə yaşatdığı yüksək qürur və sevinc hissi ilə qeyd olunur. Nazir ümummilli lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən, Azərbaycan ədliyyəsinə qayğısından bəhs edib.

Fikrət Məmmədov daha sonra ulu öndərin sadiq davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə son 19 ildə Azərbaycanın uğurla inkişaf etdiyini, hərtərəfli davamlı tərəqqisinin və ərazi bütövlüyümüzün təmin edildiyini, dövlət başçısının rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəal iştirakı ilə torpaqlarımızın sürətli bərpasını, soydaşlarımızın öz dədə-baba yurdlarına dönməyə başladığını qeyd edib. O, ədliyyə və məhkəmə sahəsində aparılan islahatlardan və tətbiq olunan yeniliklərdən danışılıb, sahə xidmətlərinə əlçatanlığın təmin olunması ilə bağlı görülən tədbirlədən də danışıb.

Ali Məhkəmənin sədri Ramiz Rzayev ədliyyə işçilərini peşə bayramı günü münasibətilə təbrik edib, ədliyyə orqanlarının qanunun aliliyinin və insan hüquqlarının qorunmasında mühüm rolundan söz açıb. Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev ədliyyə orqanlarının müasir çağırışlara uyğun uğurlu fəaliyyətini vurğulayıb.

QHT nümayəndələri Rauf Zeyni, Əliməmməd Nuriyev və Sahib Məmmədov nazirliyin vətəndaş cəmiyyəti institutları ilə nümunəvi əməkdaşlığından məmnunluqlarını ifadə ediblər, ədliyyə işçilərinə xoş arzularını çatdırıblar.

Xalq qəzeti .- 2022.- 23 noyabr.- S.10.